# MÖVZU 5
# İşçi qüvvəsinin beynəlxalq miqrasiyası

## 5.1. İşçi qüvvəsinin miqrasiyası beynəlxalq iqtisadi münasibətlərin əsas formalarından biri kimi

XX əsrin ikinci yarısında dünya ictimaiyyətinin həyatında müşahidə edilən xarakterik meyllərdən biri də əhalinin kütləvi miqrasiyasıdır. Əmtəə, xidmət və kapital bazarları ilə yanaşı işçi qüvvəsinin beynəlxalq bazarı da mövcuddur. Bir ölkədən digərinə hərəkət edən işçi qüvvəsi özünü əmtəə kimi təqdim edir və beləliklə də, beynəlxalq iqtisadi münasibətlər sisteminin tərkib hissəsinə çevrilmiş beynəlxalq əmək miqrasiyası baş verir.

Ölkələr arasında ictimai-ərazi əmək bölgüsünün ən yüksək səviyyəsi olan beynəlxalq əmək bölgüsü müxtəlif əmtəələrin istehsalının müxtəlif ölkələrdə təmərküzləşməsini, müxtəlif ölkələrdə müxtəlif həcmdə və fərqli ixtisas səviyyələrində əmək resurslarının olmasını nəzərdə tutur. Beynəlxalq əmək bölgüsü çərçivəsində kooperasiya həyata keçirilərkən bu iki formada baş verir: əmək bölgüsü əsasında istehsal edilən əmtəələrlə beynəlxalq mübadilə (beynəlxalq ticarət) və ya əməyin ölkələrarası hərəkəti əsasında beynəlxalq əmək miqrasiyası.

İşçi qüvvəsinin daxili miqrasiyasını (bir ölkənin regionları arasında) və xarici miqrasiyasını (bir neçə ölkələyə aid olan) fərqləndirirlər. Beynəlxalq miqrasiya problemlərini öyrənərkən istifadə edilən əsas anlayışlar aşağıdakılardır:

***İşçi qüvvəsinin beynəlxalq miqrasiyası*** - əməkqabiliyyətli əhalinin iş axtarışı məqsədilə və daimi yaşayış yerlərini dəyişməklə bir ölkədən digər ölkəyə hərəkəti başa düşülür.

***İmmiqrasiya*** ölkəyə xaricdən əməkqabiliyyətli əhali axınıdır.

***Emiqrasiya*** ölkədən xaricə əməkqabiliyyətli əhali axınıdır.

***Miqrasiya saldosu*** ölkənin immiqrasiya və emiqrasiya göstəricilərinin fərqidir.

***"Beyin axını"*** - yüksək ixtisaslı kadrların emiqrasiyası nəzərdə tutulur.

***Reemiqrasiya*** - daha əvvəl ölkədən emiqrasiya etmiş əhalinin daimi yaşamaq üçün yenidən vətənlərinə qayıtmaları başa düşülür.

Beləliklə, işçi qüvvəsinin beynəlxalq miqrasiyası muzdlu əməyin ixracı və idxalından ibarətdir. Beynəlxalq miqrasiya bir proses kimi emiqrasiya, immiqrasiya və reemiqrasiyanın vahidliyini əks etdirir.

Beynəlxalq miqrasiya problemlərinin aktiv surətdə öyrənilməsinə 1960-cı illərin sonlarından başlanmışdır. Iqtisadi artım modelləri çərçivəsində həyata keçirilən tədqiqatların əsas ideyası istehsalın amillərindən biri olan işçi qüvvəsinin beynəlxalq hərəkətinin iqtisadi artımın templərinə təsir göstərməsindən ibarət olub. Işçi qüvvəsinin beynəlxalq miqrasiyasının əsas səbəbi isə onun ödənilmə səviyyəsinin müxtəlif ölkələr üzrə fərqli olmasıdır.

Neoklassik yanaşmanın tərəfdarları belə hesab edirlər ki, emiqrasiya işçi qüvvəsini qəbul edən ölkənin rifah səviyyəsinin artımına gətirib çıxarır. Emiqrasiyanın mənbəsi kimi çıxış edən ölkənin iqtisadi artım tempi isə pisləşməyərək əvvəlki səviyyədə qalır.

Neokeynsçilərin fikrincə, işçi qüvvəsinin, xüsusilə də yüksək ixtisaslı işçiləri ixrac edən ölkənin iqtisadi vəziyyətinin pisləşməsi mümkündür. Bununla əlaqədar, "beyin axını"na vergi tətbiq edilməsi ideyası irəli sürülmüşdü. Bu yolla əldə edilən gəlirin inkişaf ehtiyaclarına istifadə edilməsi üçün BMT-nin sərəncamına verilməsi nəzərdə tutulurdu.

Son illərdə miqrasiya proseslərinin təhlilində vurğu ölkənin iqtisadi artımının endogen amili kimi nəzərdən keçirilən insan kapitalının akkumulyasiyasının tədqiqinə yönəlmişdir. Insan kapitalını iqtisadi inkişafın vacib amili olduğunu hesab edən bu yanaşmaya görə, beynəlxalq miqrasiya ölkələrin iqtisadi artım templərində olan fərqləri izah edən səbəblərdən biridir.

İşçi qüvvəsinin miqrasiyasının formalarını aşağıdakı kimi təsnifləşdirmək olar:

1) ***istiqamətinə görə:***
   - inkişaf etməkdə olan ölkələrdən və keçmiş sosialist ölkələrindən sənayecə inkişaf etmiş ölkələrə miqrasiya;
   - sənayecə inkişaf etmiş ölkələr arasında miqrasiya;
   - inkişaf etməkdə olan ölkələr arasında miqrasiya;
   - yüksək ixtisaslı işçi qüvvəsinin sənayecə inkişaf etmiş ölkələrdən inkişaf etməkdə olan ölkələrə miqrasiyası;
   - inkişaf etməkdə olan ölkələrdən keçmiş sosialist ölkələrinə miqrasiya.
2) ***ərazi əhatəsinə görə:***
   - qitələrarası;
   - qitədaxili.
3) ***miqrantların ixtisas səviyyəsinə görə:***
   - yüksək ixtisaslı işçi qüvvəsi;
   - aşağı ixtisaslı işçi qüvvəsi.
4) ***müddətinə görə:***
   - birdəfəlik (bir qayda olaraq qitələrarasıdır);
   - müddətli (bir qayda olaraq qitədaxili);
   - mövsümi (gəlir əldə etmək üçün hər il edilən səfərlər);
   - gündəlik (öz ölkəndə yerləşən yaşayış məntəqəsindən digər ölkədə yerləşən iş yerinə gündəlik edilən hərəkət).
5) ***qanuniliyinə görə:***
   - leqal;
   - qeyri-leqal.

Beynəlxalq Əmək Təşkilatının təsnifinə görə, müasir beynəlxalq miqrasiyanın 5 əsas tipi fərqləndirilir:

1) daimi yaşayış yerini dəyişən ***köçkünlər;***
2) ***müqavilə üzrə işləyənlər*** (müqavilədə işçinin ölkədə işləmə müddəti dəqiq şəkildə göstərilir);
3) yüksək hazırlıq səviyyəsinə, müvafiq təhsilə, praktiki iş təcrübəsinə malik ***peşəkarlar***, həmçinin dünya ali təhsil sistemi çərçivəsində hərəkət edən müəllimlər və tələbələr;
4) ***qeyri-leqal immiqrantlar***;
5) hər hansı bir təhlükə səbəbindən öz ölkələrindən emiqrasiya etməyə məcbur olan şəxslər, yəni ***qaçqınlar***.

Əmək resurslarının beynəlxalq miqrasiyası nəticəsində xaricə fərqli xüsusiyyətli əmtəə - işçi qüvvəsi hərəkət edir. Onun digər əmtəələrdən prinsipial fərqi ondadır ki, işçi qüvvəsi özü digər əmtəələrin istehsal amili kimi çıxış edir. Miqrasiya axınlarının əsasını işçilər, daha az dərəcədə isə qulluqçular təşkil edir.

## 5.2. İşçi qüvvəsinin beynəlxalq miqrasiyasını yaradan və onun inkişafına təsir edən amillər

Əmək miqrasiyasının yaranması dünya təsərrüfatının formalaşması və inkişafı ilə əlaqədardır. Dünya iqtisadi inkişafının qlobal xarakteri, ölkələrin daha aktiv şəkildə dünya təsərrüfatına cəlb edilməsi, ölkələrin qarşılıqlı asılılığı və onların iqtisadi inkişaflarında olan qeyri-bərabərlik miqrasiyanın səbələrini doğurmuşdur.

İşçi qüvvəsinin miqrasiyası iki qrup amillərin təsiri altında baş verir:

1) ***Qeyri-iqtisadi amillər,*** məsələn, siyasi-hüquqi (məsələn, 1975-ci ildə kommunistlərin qələbəsindən sonra Vyetnamdan qaçqın axınları), dini, etnik, ailəvi amillər. Son onillikdə ekoloji, təhsil-mədəni və psixoloji amillərin də miqrasiyaya təsiri artıb.
2) ***İqtisadi amillər***. İqtisadi amillərə aiddir:
   - ölkələrin iqtisadi inkişaf səviyyələrində olan müxtəliflik işçi qüvvəsinin dəyərində kəskin fərqlərə gətirib çıxarır ki, nəticədə də işçi qüvvəsi əməyin ödəniş səviyyəsinin, yəni əmək haqqının daha yüksək olduğu ölkələrə doğru istiqamətlənir;
   - ayrı-ayrı ölkələrin əmək resursları ilə fərqli səviyyədə təmin olunmaları;
   - milli əmək bazarının vəziyyəti, məsələn, zəif inkişaf etmiş ölkələrdə milli əmək bazarı xroniki işsizlik şəraitində inkişaf edir ki, bu da insanları digər ölkələrdə iş axtarmağa məcbur edir;
   - əmək resurslarının kəmiyyət və keyfiyyət xüsusiyyətlərinin milli istehsalın maddi-texniki bazasına uyğunsuzluğu.

Bütün bunlarla yanaşı, qeyd etmək lazımdır ki, sənayecə inkişaf etmiş ölkələrdə miqrasiyanın vacib motivi kimi özünütəsdiq məqsədilə konkret iş yerinin axtarışı da çıxış edir.

İşçi qüvvəsinin beynəlxalq miqrasiyasının intensivliyi bir sıra amillərdən asılıdır. Onların sırasında aşağıdakıları göstərmək olar:

- dünya iqtisadi inkişafının qlobal xarakteri və ölkələrin qarşılıqlı asılılığının artması;
- elmi-texniki tərəqqinin inkişafı ixtisaslı işçi qüvvəsinə olan ehtiyacı artırır, yeni peşələrin yaranmasına səbəb olur və mövcud iş qüvvəsinə tələbin dəyişməsinə gətirib çıxarır;
- iqtisadiyyatın struktur yenidənqurması, yəni, xarici iqtisadi fəaliyyətin liberallaşdırılması ilə müşaiyət olunan bazar iqtisadiyyatına keçid ölkənin xarici miqrasiya dövriyyəsinin kəskin artımına səbəb olur;
- kapital ixracı, transmilli şirkətlərin fəaliyyəti işçi qüvvəsinin kapitalla birləşməsinə şərait yaradaraq ya işçi qüvvəsini kapitala doğru yönləndirir, ya da kapitalı əməkdən bol olan ölkələrə köçürür;
- ayrı-ayrı ölkələrin iqtisadiyyatlarının və ümumilikdə dünya iqtisadiyyatının yerləşdikləri iqtisadi tsikl fazaları: yüksəliş fazasında işçi qüvvəsinə tələb artır, böhran fazasında isə aşağı düşür;
- dünya təsərrüfatında baş verən iqtisadi inteqrasiya prosesləri bu prosesə qoşulan ölkələr arasında işçi qüvvəsinin beynəlxalq miqrasiyasını stimullaşdırır və bu ölkələr öz növbəsində işçi qüvvəsini cəlb edən yeni mərkəzlərə çevrilirlər;
- beynəlxalq informasiya sisteminin genişlənməsi, həmçinin nəqliyyat vasitələrinin inkişafı və ucuzlaşması.

## 5.3. İşçi qüvvəsinin miqrasiya "dalğaları", miqrasiya mərkəzləri və miqrasiyanın müasir meylləri

İstənilən iqtisadi proses öz inkişafında müxtəlif mərhələlərdən keçir ki, onlar da bir-birlərindən kəmiyyət və keyfiyyət parametrlərinə görə fərqlənirlər. İqtisadi səbəblər nəticəsində miqrant axınları bir qayda olaraq aşağı gəlirli ölkələrdən yüksək gəlirli ölkələrə doğru istiqamətlənir. II dünya müharibəsindən sonra beynəlxalq miqrasiyanın istiqamətləri iqtisadi şəraitin dəyişməsi nəticəsində daim tərəddüdlərə məruz qalmışdır.

İşçi qüvvəsinin miqrasiyası bir çox yüzillik bundan əvvəl yaranıb və o vaxtdan ciddi dəyişikliklərə məruz qalıb. İşçi qüvvəsinin ilk kütləvi hərəkəti qulların Afrikadan Amerika qitəsinə məqsədyönlü daşınması olub ki, bunun da nəticəsində XVII-XIX əsrlərdə Afrikanın əhalisi xeyli azalmışdı. Köçmə prosesi XVIII əsrin sonları XIX əsrin əvvəllərində, əhali kütlələrinin müxtəlif səbəblərdən Avropadan Amerikaya hərəkəti zamanı xüsusilə geniş masştab almışdı.

Quldarlığın ləğvindən sonra ABŞ-a Avropadan ikinci iri emiqrasiya dalğası başladı. XIX əsrin birinci yarısında sənaye işçilərinin beynəlxalq miqrasiyası üstünlük təşkil edirdisə, həmin əsrin sonuna miqrasiyaya daha çox müflisləşmiş kəndlilər cəlb edilmişdi.

XIX əsrin ortalarında müasir miqrasiyanın tarixində ən əhəmiyyətli hadisələrdən biri qeydə alınmışdır. Belə ki, XIX əsrin 40-cı illərində "kartof aclığı" nəticəsində İrlandiyadan ABŞ-a emiqrasiya "püskürməsi" baş vermişdir.

XIX əsrin 80-ci illərində İtaliyadan və Şərqi Avropa ölkələrindən ABŞ-a geniş həcmli miqrasiya Avropada yetişdirilən buğdanın qiymətinin kəskin şəkildə aşağı düşməsi ilə əlaqədar idi.

XIX əsrin sonlarında ABŞ-da iqtisadi konyukturanın pisləşməsi nəticəsində bu ölkəyə miqrant axını kəskin surətdə azaldı. Lakin iqtisadi canlanmanın başlanması ilə axın yenidən geniş vüsət aldı. Bu dövrdə işçi qüvvəsinin geniş həcmli miqrasiyasının səbəbləri kimi bir sıra Avropa ölkələrində aqrar köçmələri, Avropada mövcud olan işsizliyi, ABŞ-da işləmək üçün əlverişli şəraitin olmasını göstərmək olar.

Avropadan ABŞ-a növbəti miqrasiya dalğası ötən yüzilliyin 20-ci illərində qeydə alınmışdır. Bu dövrdə yuxarıda qeyd olunan səbəblər sırasına I dünya müharibəsinin nəticələri, müharibədən sonrakı çətinliklər də əlavə edilmişdi.

II dünya müharibəsindən sonra dünya əmək bazarına elmi-texniki və yüksək ixtisaslı işçilər çıxmağa başladılar. Bu zaman ABŞ-a işçi qüvvəsinin miqrasiyasının 3 yeni axını qeydə alınmışdır. Birinci axın kimi "beyin axını"nı, yəni yüksək ixtisaslı mütəxəssislərin və onların ailə üzvlərinin Şimali Amerikaya sabit axınını göstərmək olar. İkinci axın kimi Macarıstandan (1956-cı ildə xalq üsyanının boğulmasından sonra), Vyetnamdan (1974-1975-ci illərdə, müharibənin bitməsindən sonra) və Kubadan (1980-ci ildən sonra) qaçqın axınlarını qeyd etmək olar. Üçüncü axın kimi isə ABŞ-a Meksika, Karib hövzəsi ölkələri və Asiyadan əsasən aşağı ixtisaslı işçi qüvvəsi axını fərqləndirilir. 1990-cı illərdə bütün immiqrantların 84%-i ABŞ-a bu üç regiondan gəlib.

XIX-XX əsrin əmək miqrasiyası proseslərində Çindən Cənub-Şərqi Asiya ölkələrinə və Şimali Amerikaya əhali miqrasiyası xüsusi rol oynamışdır. Köçmə xarakteri daşıyan bu axın 70-100 milyon nəfər həcmində qiymətləndirilir.

II dünya müharibəsindən sonra, xüsusilə də 1960-cı illərin əvvəllərində Avropada işçi qüvvəsinin miqrasiyasının kifayət qədər intensiv prosesləri qeydə alınıb. İspaniya, Portuqaliya, Yunanıstan, Yuqoslaviya, Türkiyədən olan işçilər Avropanın sənayecə inkişaf etmiş ölkələrinin iqtisadiyyatında aktiv şəkildə istifadə edilməyə başlanıb. Xarici işçi qüvvəsi Avropa Birliyi ölkələrinin təsərrüfatlarının müvəffəqiyyətlə funksiya göstərməsi üçün vacib bir amilə çevrilib.

BMT-nin hesablamalarına görə, 1975-ci ildən etibarən dünyada miqrantların sayı demək olar ki, iki dəfə artaraq 2000-ci ilin yekununa görə, 175 milyon nəfər təşkil etmişdir ki, bu da bütün dünya əhalisinin 3%-i deməkdir. Miqrantların coğrafi regionlara görə bölgüsünü və onların artım həcmini Cədvəl 7.1-dən görmək olar.

Cədvəldən göründüyü kimi, miqrantların çoxu Avropada (56 milyon nəfər), Asiyada (50 milyon nəfər) və Şimali Amerikada (41 milyon nəfər) yaşayır. BMT-nin apardığı tədqiqatlar göstərir ki, miqrantların 60%-i inkişaf etmiş ölkələrdə, 40%-i isə daha az inkişaf etmiş ölkələrdə yaşayırlar. Faktiki olaraq, inkişaf etmiş ölkələrin əhalisinin hər 10 nəfərindən biri miqrantdır. İnkişaf etməkdə olan ölkələrdə isə hər 70 nəfərə bir miqrant düşür.

1990-2000-ci illər ərzində dünyada miqrantların sayı 21 milyon nəfər və ya 14% artmışdır. Miqrantların sayı inkişaf etmiş regionlarda artmış, inkişaf etməkdə olan regionlarda isə azalmışdır. Avropa, Şimali Amerika, Avstraliya, Yeni Zelandiya və Yaponiyada miqrant axını 23 milyon nəfər və ya 28% artmışdır.

**Cədvəl 7.1**

**Əsas regionlar üzrə miqrant axınlarının həcmi və artımı, 1990-2000**

| **Əsas regionlar** | **1990** (min nəfərlə) | **2000** (min nəfərlə) | **Dəyişmə: 1990-2000** (min nəfərlə) | %-lə |
|---|---|---|---|---|
| ***Dünya*** | ***153 956*** | ***174 781*** | ***20 825*** | ***13.5*** |
| İnkişaf etmiş regionlar | 81 424 | 104 119 | 22 695 | 27.9 |
| Zəif inkişaf etmiş regionlar | 72 531 | 70 662 | -1 869 | -2.6 |
| Lap zəif inkişaf etmiş ölkələr | 10 992 | 10 458 | -534 | -4.9 |
| Afrika | 16 221 | 16 277 | 56 | 0.3 |
| Asiya | 49 956 | 49 781 | -175 | -0.4 |
| Avropa | 48 437 | 56 100 | 7 663 | 15.8 |
| Latın Amerikası və Karib hövzəsi | 6 994 | 5 944 | -1 051 | -15.0 |
| Şimali Amerika | 27 597 | 40 844 | 13 248 | 48.0 |
| Okeaniya | 4 751 | 5 835 | 1 084 | 22.8 |

**Mənbə:** International Migration Report 2002. United Nations. New York 2002.

Son onillikdə Şimali Amerikada miqrantların sayı 13 milyon nəfər (48%) artdığı halda, Avropada bu artım 8 milyon nəfər və ya 16% təşkil etmişdir. İnkişaf etməkdə olan regionlarda isə 1990-2000-ci illər ərzində miqrant əhalinin sayı 2 milyon nəfər azalmışdır. Latın Amerikası və Karib hövzəsi ölkələrində miqrantların sayı 1 milyon nəfər və ya 15% azalma göstərmişdir.

BMT-nin rəqəmlərinə görə, 1995-2000-ci illərdə dünyanın daha inkişaf etmiş regionlarına daha az inkişaf etmiş regionlar tərəfindən təxminən 12 milyon nəfər miqrant ixracı baş verib ki, bu da illik 2,3 milyon miqrant deməkdir. Bu dövrdə Şimali Amerikaya hər il 1,4 milyon nəfər miqrant gəlib.

Miqrantların sayına görə ilk 20 yeri tutan ölkə Şəkil 7.1-də göstərilib. 35 milyon nəfər miqranta malik ABŞ birinci yeri tutur. Onu 13 milyon nəfər miqrantla Rusiya və 7 milyon nəfər miqrantla Almaniya izləyir.

Şəkil 7.2-də əhalinin ümumi sayında miqrantların sayının çox olduğu ilk 20 ölkə əks etdirilib. Şəkildən göründüyü kimi, ilk dörd ölkə Qərbi Asiyada yerləşir: Birləşmiş Ərəb Əmirlikləri (74%), Küveyt (58%), İordaniya (40%) və İsrail (37%).

İşçi qüvvəsinin beynəlxalq miqrasiyasına gəldikdə isə müasir dövrdə o, bir sıra xüsusiyyətlərə malikdir. İlk öncə əmək miqrasiyasının artan həcmlərini qeyd etmək lazımdır. Əgər 1960-cı ildə işçi-miqrantların sayı 3,2 milyon nəfərə bərabər idisə, 1995-ci ildə bu rəqəm 10 dəfə artaraq 35 milyon nəfər təşkil etmiş, 1997-ci ildə isə 40 milyon nəfərə çatmışdı. 2002-ci ildə isə bu göstərici artıq 50 milyon nəfəri keçmişdir.[1]

Son onillikdə demək olar ki, sənayecə inkişaf etmiş bütün ölkələrdə xarici işçilərin sayının artımı müşahidə edilir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına daxil olan bəzi ölkələrdə mövcud olan vəziyyəti Cədvəl 7.2-dən görmək olar.




**Şəkil 7.1.** *Ən çox miqrantlara malik olan ölkələr, 2000, min nəfərlə.*

**Mənbə:** International Migration Report 2002. United Nations. New York 2002.

[1] Trends in International Migration. Annual Report 2002. OECD. Paris, 2003.




**Şəkil 7.2.** *Miqrantların əhalinin ümumi sayında xüsusi çəkisinə görə lider ölkələr, 2000, %-lə*

**Mənbə:** International Migration Report 2002. United Nations. New York 2002.

**Cədvəl 7.2**

**İƏİT-ə daxil olan bəzi ölkələrin əmək resurslarında immiqrantların xüsusi çəkisi, (min nəfərlə və %-lə)**

| | **1991** | **1992** | **1993** | **1994** | **1995** | **1996** | **1997** | **1998** | **1999** | **2000** |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Avstriya | 277.2 | 295.9 | 304.6 | 316.5 | 325.2 | 328.0 | 326.3 | 327.1 | 333.6 | 245.6 |
| *xüsusi çəkisi* | 8.7 | 9.1 | 9.3 | 9.7 | 9.9 | 10.0 | 9.9 | 9.9 | 10.0 | 10.5 |
| Belçika | 303.0 | 325.6 | 342.1 | 354.9 | 362.1 | 368.0 | 377.4 | 390.7 | 386.2 | ... |
| *xüsusi çəkisi* | 7.4 | 7.8 | 8.1 | 8.4 | 8.5 | 8.6 | 8.8 | 8.8 | 8.9 | ... |
| Çexiya | ... | ... | 51.6 | 72.1 | 111.9 | 143.2 | 130.8 | 111.2 | 93.5 | 103.6 |
| *xüsusi çəkisi* | ... | ... | 1.0 | 1.4 | 2.2 | 2.8 | 2.5 | 2.1 | 1.8 | 2.0 |
| Danimarka | 71.2 | 74.0 | 77.7 | 80.3 | 83.8 | 88.0 | 93.9 | 98.3 | 96.3 | 96.8 |
| *xüsusi çəkisi* | 2.4 | 2.6 | 2.7 | 2.9 | 3.0 | 3.1 | 3.3 | 3.4 | 3.4 | 3.4 |
| Finlandiya | ... | ... | ... | 24.4 | 26.9 | 29.7 | 33.0 | 36.0 | 37.2 | ... |
| *xüsusi* | ... | ... | ... | 1.0 | 1.1 | 1.2 | 1.3 | 1.4 | 1.5 | ... |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| *çəkisi* | | | | | | | | | | |
| Fransa<br>*xüsusi çəkisi* | 1506.0<br>6.0 | 1517.8<br>6.0 | 1541.5<br>6.1 | 1593.9<br>6.3 | 1573.3<br>6.2 | 1604.7<br>6.3 | 1569.8<br>6.1 | 1586.7<br>6.1 | 1593.8<br>5.8 | 1577.6<br>6.0 |
| Almaniya<br>*xüsusi çəkisi* | ...<br>... | ...<br>... | ...<br>... | ...<br>... | ...<br>... | ...<br>... | 3575.0<br>8.9 | ...<br>... | 3545.0<br>8.8 | 3546.0<br>8.8 |
| Macarıstan<br>*xüsusi çəkisi* | 33.4<br>... | 15.7<br>0.4 | 17.6<br>0.4 | 20.1<br>0.5 | 21.0<br>0.5 | 18.8<br>0.5 | 20.4<br>0.5 | 22.4<br>0.6 | 28.5<br>0.7 | 35.0<br>0.9 |
| İrlandiya<br>*xüsusi çəkisi* | 39.3<br>2.9 | 40.4<br>3.0 | 37.3<br>2.7 | 34.5<br>2.5 | 42.1<br>2.9 | 52.4<br>3.5 | 51.7<br>3.4 | 53.3<br>3.3 | 57.7<br>3.4 | 63.9<br>3.7 |
| İtaliya<br>*xüsusi çəkisi* | 285.3<br>1.3 | 296.8<br>1.4 | 304.8<br>1.5 | 307.1<br>1.5 | 332.2<br>1.7 | 580.6<br>2.6 | 539.6<br>2.4 | 614.6<br>2.7 | 747.6<br>3.6 | 850.7<br>3.6 |
| Yaponiya<br>*xüsusi çəkisi* | ...<br>... | 85.5<br>0.1 | 95.4<br>0.1 | 105.6<br>0.2 | 88.0<br>0.1 | 98.3<br>0.1 | 107.3<br>0.2 | 119.0<br>0.2 | 125.7<br>0.2 | 154.7<br>0.2 |
| Cənubi Koreya<br>*xüsusi çəkisi* | ...<br>... | ...<br>... | ...<br>... | 30.5<br>0.1 | 52.2<br>0.3 | 82.9<br>0.4 | 106.8<br>0.5 | 76.8<br>0.4 | 93.0<br>0.4 | 122.5<br>0.6 |
| Lüksemburq<br>*xüsusi çəkisi* | 92.6<br>47.5 | 98.2<br>49.2 | 101.0<br>49.7 | 106.3<br>51.0 | 111.8<br>52.4 | 117.8<br>53.8 | 124.8<br>55.1 | 134.6<br>57.7 | 145.7<br>57.3 | 152.7<br>57.3 |
| Niderland<br>*xüsusi çəkisi* | 214<br>3.3 | 229<br>3.5 | 219<br>3.3 | 216<br>3.3 | 221<br>3.2 | 218<br>3.1 | 208<br>2.9 | 235<br>3.4 | ...<br>... | ...<br>... |
| Norveç<br>*xüsusi çəkisi* | 46.3<br>2.3 | 46.6<br>2.3 | 47.9<br>2.4 | 50.3<br>2.5 | 52.6<br>2.5 | 54.8<br>2.6 | 59.9<br>2.8 | 66.9<br>3.0 | 104.6<br>4.7 | 111.2<br>4.9 |
| Portuqaliya<br>*xüsusi çəkisi* | 54.9<br>1.1 | 59.2<br>1.3 | 63.1<br>1.4 | 77.6<br>1.6 | 84.3<br>1.8 | 86.8<br>1.8 | 87.9<br>1.8 | 88.6<br>1.8 | 91.6<br>1.8 | 99.8<br>2.0 |
| Slovakiya<br>*xüsusi çəkisi* | 1.2<br>... | 5.0<br>... | 5.5<br>... | 3.9<br>0.2 | 3.9<br>0.2 | 4.8<br>0.2 | 5.5<br>0.2 | 5.9<br>0.2 | 4.5<br>0.2 | ...<br>... |
| İspaniya<br>*xüsusi çəkisi* | 171.0<br>1.1 | 139.4<br>0.9 | 117.4<br>0.8 | 121.8<br>0.8 | 139.0<br>0.9 | 166.5<br>1.0 | 178.7<br>1.1 | 197.1<br>1.2 | 199.8<br>1.2 | ...<br>... |
| İsveç | 241.0 | 233.0 | 221.0 | 213.0 | 220.0 | 218.0 | 220.0 | 219.0 | 222.0 | 222.0 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| *xüsusi çəkisi* | 5.3 | 5.3 | 5.1 | 5.0 | 5.1 | 5.1 | 5.2 | 5.1 | 5.1 | 5.0 |
| İsveçrə<br>*xüsusi çəkisi* | 702.5<br>17.8 | 716.7<br>18.3 | 725.8<br>18.5 | 740.3<br>18.9 | 728.7<br>18.6 | 709.1<br>17.9 | 692.8<br>17.5 | 691.1<br>17.3 | 701.2<br>18.1 | 717.3<br>18.3 |
| Böyük Britaniya<br>*xüsusi çəkisi* | 828.0<br>3.0 | 902.0<br>3.6 | 862.0<br>3.4 | 864.0<br>3.4 | 862.0<br>3.4 | 865.0<br>3.3 | 949.0<br>3.6 | 1039.0<br>3.9 | 1005.0<br>3.7 | 1229.0<br>4.4 |
| Avstraliya<br>*xüsusi çəkisi* | 2169.0<br>25.7 | ...<br>... | ...<br>... | ...<br>... | 2138.8<br>23.9 | 2249.3<br>24.8 | 2263.9<br>25.0 | 2308.7<br>24.9 | 2309.6<br>24.6 | 2364.5<br>24.5 |
| Kanada<br>*xüsusi çəkisi* | 2681.0<br>18.5 | ...<br>... | ...<br>... | ...<br>... | ...<br>... | 2839.1<br>19.2 | ...<br>... | ...<br>... | ...<br>... | ...<br>... |
| ABŞ<br>*xüsusi çəkisi* | ...<br>... | ...<br>... | ...<br>... | 12900<br>9.8 | 12900<br>9.7 | 14400<br>10.7 | 15400<br>11.3 | 16100<br>11.7 | 16114<br>11.7 | 17400<br>12.4 |

**Mənbə:** Trends in International Migration. Annual Report 2002. OECD. Paris, 2003.

Müasir mərhələnin bir xüsusiyyəti də qitədaxili miqrasiyanın artmasıdır. 1960-cı illərdə və 1970-ci illərin əvvəllərində Avropada həm emiqrasiya, həm də immiqrasiya ölkələri üçün qitədaxili miqrasiya xüsusi əhəmiyyət kəsb etməyə başladı. Almaniyadan başqa, Fransa, Belçika, İsveçrə və bir sıra digər Qərbi və Şimali Avropa ölkələri immiqrasiya ölkələrinə çevrildilər. Bu ölkələr üçün qeyd olunan dövrdə yüksək iqtisadi artım templəri, istehsalın və əməyin beynəlmiləlləşməsi, demoqrafik vəziyyətin kəskinləşməsi xarakterik idi. Türkiyə, İtaliya, Yunanıstan, İspaniya, Portuqaliya və keçmiş Yuqoslaviya isə emiqrasiya ölkələri kimi çıxış etməyə başladılar. Bu ölkələr iqtisadi cəhətdən nisbətən az inkişaf etmiş ölkələr olmaqla yanaşı, onlarda əhalinin təbii artım tempi daha yüksək və qeyri-ixtisaslı işçi qüvvəsinin payı daha çox idi. 1990-cı illərdə Avropada vəziyyət bir elə dərəcədə dəyişməmişdir. Amerika və Afrika qitələrində də qitədaxili miqrasiya güclənmişdir.

Digər bir xüsusiyyət kimi isə beynəlxalq miqrasiya ilə əlaqədar olan pul axınlarının həcminin artmasını göstərmək olar. Hazırda bu göstərici yüz milyard dollarla ölçülür və masştabına görə birbaşa xarici investisiyalarla müqayisə edilə bilər. Pul köçürmələrinin təxminən 4/5-ü inkişaf etmiş ölkələrdə işləyən miqrantların payına düşür. Bu o deməkdir ki, işçi miqrantların əsas hissəsi inkişaf etmiş ölkələrdə cəmlənib.

Qeyri-rezident işçilərə ən çox əmək haqqı ödəmələri Almaniya, İtaliya, Yaponiya, Belçika, ABŞ-da həyata keçirilir. Inkişaf etməkdə olan ölkələrdə xarici işçi qüvvəsindən Cənubi Afrika Respublikası, Malayziya, Küveyt daha aktiv surətdə istifadə edirlər. Şəxsi xarakterli pul köçürmələrinin əsas hissəsi inkişaf etmiş ölkələrdən (ABŞ, Almaniya, Yaponiya, Böyük Britaniya), yeni sənaye ölkələrindən (Cənubi Koreya) və neft hasil edən inkişaf etməkdə olan ölkələrdən (Səudiyyə Ərəbistanı, Venesuela) həyata keçirilir. Xaricdən pul köçürmələrinin əsas alıcıları inkişaf etmiş ölkələrdir (transmilli şirkətlərin xarici bölmələrində çalışanların, xarici ölkələrdə yerləşdirilən hərbi qulluqçuların, diplomatların pul köçürmələri).

Bununla belə, bir çox inkişaf etməkdə olan ölkələrdə (Banqladeş, Burkina-Faso, Misir, Yamayka, Malavi, Mərakeş, Pakistan, Portuqaliya, Şri-Lanka, Sudan, Türkiyə) şəxsi xarakterli köçürmələrin həcmi əmtəə ixracından əldə edilən gəlirlərin 20-50%-i həcmindədir. İordaniya, Lesoto, Yəməndə köçürmələr ümumi milli məhsulun 10-50%-ə bərabərdir. BMT-nin hesablamalarına görə, təkcə 2000-ci il ərzində xaricdən edilmiş pul köçürmələri nəticəsində Salvador, Eritreya, Yamayka, İordaniya, Nikaraqua və Yəmən kimi ölkələrin ÜDM-si təxminən 10% artmışdır.

Praktikada xarici işçiləri kütləvi surətdə cəlb edən müəyyən coğrafi regionlar da fərqləndirilir. Bu regionları "cəzbetmə mərkəzləri" adlandırırlar. Hazırda dünyada bu cür 8 mərkəz formalaşaraq fəaliyyət göstərməkdədir. XVIII-XIX əsrlərdən formalaşmağa başlamış ənənəvi mərkəzlərə aşağıdakılar aiddir.

1. ***Qərbi Avropa ölkələri.*** Burada miqrantların və onların ailə üzvlərinin sayı 13 milyon nəfəri keçmişdir. 2000-ci ilin yekunlarına görə, immiqrantların Almaniyanın əmək resurslarında xüsusi çəkisi 8,8%-ə bərabər olmuşdur. Fransada bu göstərici 6,0%-ə, Avstriyada 10,5%-ə, İsveçrədə 18,3%-ə, Lüksemburqda isə 57,3% təşkil etmişdir.

Xarici işçilər əsasən əl əməyinin yüksək olduğu sahələrdə (tikinti, xidmət sahələri) və həmçinin, yerli əhalinin işləməyi özlərinə sığışdırmadıqları və ya təhlükəli hesab etdikləri sahələrdə çalışırlar. Məsələn, Fransada tikinti sahəsində çalışanların 1/4-ni, avtomobilqayırmada işləyənlərin isə 1/3-ni emiqrantlar təşkil edir. Belçikada dağ sənayesində çalışanların 1/2-i xaricdən gəlir.

Immiqrantların əsas hissəsini qəbul edən ölkələr Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə, Belçika, İsveç və Niderlanddır. 2000-ci ilin rəqəmlərinə görə, Almaniyada 3,6 milyon nəfər (əsaən türklər, yuqoslavlar və italyanlar), Fransada 1,6 milyon nəfər (əsasən Şimali Afrika ölkələrindən olanlar), Böyük Britaniyada 1,2 milyon nəfər (əsasən Krallığa daxil olan ölkələrdən) immiqrant çalışmaqdadır.

Bu regiona işçi qüvvəsini ixrac edən ölkələr kimi coğrafi baxımdan Avropanın "kandarı"nda yerləşən ölkələri (Türkiyə, İtaliya və s.), Şərqi Avropa ölkələrini, həmçinin Yaxın Şərq və Şimali Afrika ölkələrini göstərmək olar.

Bu regionda beynəlxalq miqrasiya prosesinin xarakterik xüsusiyyəti "vahid əmək bazarı"nın mövcud olması ilə əlaqədardır. Avropa Birliyinin inteqrasiya mərhələlərindən biri kimi formalaşan bu bazar səbəindən Qərbi Avropada Avropa Birliyinin üzv ölkələrindən olan miqrantları payı yüksəkdir (təxminən 40%).

Almaniya Federal Məşğulluq İnstitutunun proqnozlarına görə, Avropa Birliyində müşahidə olunna iqtisadi artım yeni iş yerləri yaratsa da, bu, 1960-cı illərdə müşahidə olunan immiqrasiya proseslərinə oxşar hadisələrin baş verməsinə gətirib çıxarmayacaqdır. Avropa Birliyi ölkələri üçüncü ölkələrdən işçi qüvvəsinin cəlb etməyə bir o qədər də həvəs göstərməyəcəklər. Gözlənilir ki, əsas üstünlüyü Böyük Britaniya, Almaniya, Fransa və Benilüks ölkələri əldə edəcəklər. Bütün yeni iş yerlərinin 40%-i Böyük Britaniyada və Almaniyada yaradılacaq. Yeni iş yerlərinin 25%-i sənayedə, 50%-i isə topdan və pərakəndə ticarət, nəqliyyat, tikinti sahələrində cəmləşəcəkdir.

Əksər avropalı ekspertlərin fikrincə, Avropa Birliyi ölkələri əhalinin artımının olmadığı bir şəraitdə əməyə qənaət edən texnologiyalara üstünlük verəcək, qadın əməyindən aktiv şəkildə istifadə edəcəklər. Onlara görə, Avropa Birliyi ölkələrində işsizliyin 7-10% təşkil etdiyi halda xaricdən işçi qüvvəsinin cəlb edilməsi "siyasi baxımdan" düzgün olmazdı.

Avropalı ekspertlərin proqnozlarına görə, yüksək ixtisaslı işçilər işçi qüvvəsinin ən mobil hissəsi olacaqlar. Kommersiya qanunvericiliyinin liberallaşdırılması Avropa Birliyi daxilində

kiçik və orta şirkətlərin hərəkətini stimullaşdıracaq. Belə bir şəraitdə yüksək ixtisaslı işçilərə tələb həddən artıq yüksək olacaq.

Yaxın zamanlarda miqrantların mövcud strukturunda köklü dəyişikliklər gözlənilmir. Lakin, aşağı ixtisaslı işçi qüvvəsinin kütləvi, pis təşkil edilmiş immiqrasiyası öz yerini məqsədli təyinata görə kollektiv müqavilələrə verəcəkdir.

2. ***ABŞ***. Müasir dünyanın iqtisadi cəhətdən ən inkişaf etmiş ölkəsi sayılan ABŞ həm yüksək, həm də aşağı ixtisaslı işçi qüvvəsinin miqrasiyasının əsas istiqamətidir. Hər il bu ölkəyə ümumilikdə digər ölkələrə gələn immiqrantlardan daha çox işçi qüvvəsi axın edir. Müxtəlif ölkələrdən işləmək üçün ABŞ-a gedən miqrantlar 2002-ci ilin yekunlarına görə, ölkənin işçi qüvvəsinin 12,4%-ni təşkil edir. Orta hesablamalara görə, ABŞ-a leqal şəkildə ildə 740 min nəfər immiqrasiya edir və 160 min nəfər emiqrasiya edir. Təmiz immiqrasiya (miqrasiya saldosu) 580 min nəfər təşkil edir.

ABŞ-a müharibədən sonrakı immiqrasiya üç mərhələdən ibarət olub. Birinci mərhələ kimi güclü Avropa emiqrasiyasını göstərmək olar. Bu zaman Qərbi Avropadan ABŞ-a 6,6 milyon nəfərdən artıq adam köç edib. İkinci mərhələ isə 1965-ci ildən başlayıb. Belə ki, xüsusi qanunun qəbul edilməsi üçün Asiya və latın Amerikası ölkələrindən olanlara əlverişli şərait yaradılıb. Üçüncü mərhələnin başlanğıcı kimi 1993-cü il göstərilir. Bu zaman Avropa ölkələrindən, xüsusilə də İrlandiya, Böyük Britaniya, İtaliya, Polşadan olan immiqrantlara üstünlük verilməyə başlandı. Bu cür istiqamət dəyişmə onunla əlaqədardır ki, yaxın zamanlarda ABŞ ağ dərili əhalinin azlıq təşkil etidiyi ölkəyə çevrilə bilər. ABŞ-ın Hadson İnstitutunun hesablamalarına görə, 1985-ci illə müqayisədə 2000-ci ildə ağ dərili əhalinin məşğul əhalidə malik olduğu pay 83%-dən 57%-ə düşmüş, "rəngli" dərili əhalinin payı isə 10%-dən 20%-ə qədər artmışdır.

Aşağı ixtisaslı işçi qüvvəsinin əsas hissəsi ABŞ-ın yaxınlığında yerləşən Latın Amerikası ölkələrindən, xüsusilə Meksikadan, Karib hövzəsi ölkələrindən gəlir. Yüksək ixtisaslı işçilər ABŞ-a demək olar ki, bütün dünya ölkələrindən, o cümlədən Latın Amerikası ölkələrindən, Qərbi Avropadan, Rusiyadan, Hindistandan immiqrasiya edir.

Hələ 1950-ci illərdə həyata keçirilməyə başlanmış yüksək ixtisaslı işçilərin cəlb edilməsi siyasəti hazırda davam etdirlir. Belə ki, ABŞ Konqresinin qərarına görə immiqrasiya zamanı yüksək ixtisaslı işçilərə, mühəndislərə, menecerlərə, tibb işçilərinə, fundamental sahələrdə çalışan elm adamlarına üstünlük verəcəkdir.

Son zamanlara qədər ABŞ yüksək ixtisaslı işçiləri əsasən Hindistan və Misir ixrac etmişdir. 1980-ci illərdə Hindistandan ABŞ-a işləmək üçün 20 min nəfərdən çox yüksək ixtisaslı işçi emiqrasiya etmişdir. Ərəb dünyasından ABŞ-a gələn yüksək ixtisaslı işçilərin 2/3-i Misirin payına düşür. Qərbi yüksək ixtisaslı işçilərlə təmin edən ölkələr sırasında həmçinin Pakistanı da göstərmək olar.

3. ***Avstraliya***. Ölkədə təxminən 200 min nəfər xarici işçi qüvvəsindən istifadə edilir. Şərqi və Cənub-Şərqi Asiyadan, həmçinin Şərqi və Mərkəzi Avropadan olan miqrantlar üstünlük təşkil edir.

Avstraliya da ABŞ kimi immiqrantların assimilyasiyasına yönəlib. 1950-60-cı illərdə həyata keçirilən immiqrasiya siyasəti Şərqi və Mərkəzi Avropadan, xüsusilə də İtaliya, Yunanıstan və Yuqoslaviyadan immiqrantların cəlb edilməsinə yönəlmişdi. 1970-ci illərdən başlayaraq immiqrasiya siyasəti Asiya ölkələrinə istiqamətləndi. 1970-ci illərin ortalarında Şərqi və Cənub-Şərqi Asiya ölkələrindən gələnlərin sayı 1960-cı illərə nisbətən 30% çoxaldığı halda, Şərqi və Mərkəzi Avropadan olanların sayı bu dövrdə 25% azalıb.

1982-ci ildən başlayaraq Avstraliya ölkədə biznesin inkişafına yönəlmiş yeni immiqrasiya siyasəti yeridir. Bu siyasətə görə ilk növbədə ölkə iqtisadiyyatına investisiya yatırmış immiqrantlar qəbul edilir. 1990-cı illərin əvvəllərində bu siyasətin nəticəsində Avstraliya iqtisadiyyatına 1,2 milyard dollar sərmayə cəlb edilib, 9 min investor və onların 28 min nəfər ailə üzvləri ölkədə yaşamaq üçün viza alıblar.

Müasir mərhələdə miqrasiyanın bir xüsusiyyəti kimi də immiqrantları cəlb edən yeni mərkəzlərin yaranmasıdır. XX əsrin 60-cı illərinin sonu 70-ci illərinin əvvəlindən etibarən işçi qüvvəsini cəlb edən yeni mərkəzlər meydana gəlməyə başladı. Bu regionlarda yüksək iqtisadi artım templəri, emaledici sənayenin inkişafı, iri həcmli xarici kapital cəlbi müşahidə edilir ki, bunlar da əlavə əmək resurslarına ehtiyac yaradır. Bu mərkəzlərə aşağıdakılar aiddir.

1. ***Asiya – Sakit okean regionu ölkələri.*** Regionda qitədaxili miqrasiya axınları ötən yüz il ərzində durmadan müşahidə edilməsinə baxmayaraq, burada situasiya 1980-ci illərindən ortalarından radikal olaraq dəyişməyə başlamışdır. Ərəb ölkələrinə tərəf hərəkət 1970-ci illərin əvvəllərindən müşahidə edilmişdir. Lakin, 1980-ci illərin sonlarından başlayaraq miqrasiya axını Asiyadaxili istiqamətə, xüsusilə də yüksək iqtisadi artım nümayiş etdirən ölkələrə - Yaponiyaya, Cənubi Koreyaya, Tayvana, Honqkonqa, Sinqapura, Malayziyaya, Bruneyə doğru yönlənmişdir. Bu ölkələrin əksəriyyətində iqtisadi inkişafla yanaşı işçi qüvvəsi kəsirinə gətirib çıxarmış doğumun azalması prosesi də baş vermişdir.

Hazırda regionda işçi qüvvəsinin əsas idxalatçıları Bruney, Yaponiya, Honq-Konq, Malayziya, Pakistan, Sinqapur, Cənubi Koreya və Tayvandır. İşçi qüvvəsinin əsas ixracatçıları kimi Çin, Vyetnam, Laos və digər ölkələr çıxış edirlər. Digər tərəfdən, əsasən Cənub-Şərqi Asiyada yerləşən yeni sənaye ölkələrinin güclü inkişafı nəticəsində regiona immiqrant axını xeyli güclənmişdir.

2. ***Yaxın Şəqrin neft hasil edən ölkələri.*** Bu iş qüvvəsi bazarı 1970-ci illərdə formalaşıb. 1990-cı illərin əvvəlində bu regiona 4,5 milyon nəfərdən artıq xarici işçi cəlb olunduğu halda, yerli işçilərin sayı 2 milyon nəfərə bərabər idi.

Bir sıra ölkələrdə xarici işçi qüvvəsinin ümumi məşğul əhalidə malik olduğu pay xeyli yüksəkdir. Məsələn, Birləşmiş Ərəb Əmirliklərində bu göstərici 97%, Qətərdə 95,6%, Küveytdə 86,5% təşkil edir. Səudiyyə Ərəbistanı və Bəhreyndə də immiqrantların xüsusi çəkisi böyükdür – hər iki ölkədə bu göstərici 40%-ə bərabərdir.

Yaxın Şərqdə işçi qüvvəsinin əsas ixracatçısı Misirdir. Yaxın Şərqdə həmçinin yaxınlıqda yerləşən ərəb ölkələrindən (Suriya, Livan, İordaniya, İraq, Fələstin və s.), Şərqi və Cənub-Şərqi Asiya ölkələrindən (Hindistan, Pakistan, Filippin, Banqladeş və s.) olan miqrantlar da çalışırlar. Son zamanlar Asiyadan, xüsusilə də Cənub-Şərqi Asiyadan olan işçi-miqrantlara yönəlmə güclənmişdir. Bu, həmin regiondan olan miqrantların axınına asan nəzarət edilməsi ilə bağlıdır.

Yaxın Şərq ölkələrinin işçi qüvvəsinin əsasını təşkil edən immiqrantlar eyni zamanda öz ölkələrinin iqtisadiyyatlarının stimullaşdırılmasının vacib amili kimi də çıxış edirlər. Daha əvvəl qeyd edildiyi kimi, Misir, İordaniya, Yəmən və digər ölkələr üçün xaricdən pul köçürmələri xarici valyuta axınının əhəmiyyətli mənbəyidir. 1990-cı illərin ortalarında bu regionda emiqrantların pul köçürmələri 3,2 milyard dollara bərabər olub. Pul köçürmələri bəzən əmtəə ixracından əldə edilən gəlirlərdən çox olur.

3. ***Latın Amerikası ölkələri.*** Burada miqrantların ümumi sayı 3 milyon nəfərə bərabərdir. Bu regionda mövsümi kənd təsərrüfatı işləri ilə bağlı miqrasiya daha geniş yayılıb. Artıq Latın Amerikasının bəzi ölkələri keçmiş SSRİ və Şərqi Avropa ölkələrindən olan immiqrantlata öz maraqlarının olduqlarını bildirirlər. Argentina, Boliviya, Braziliya, Venesuela, Çili və Paraqvay

Şərqi Avropalıların cəlb edilməsi üçün xüsusi proqramlar həyata keçirirlər. Kəskin mütəxəssis çatışmazlığı hiss edilən ixtisaslar neftçilər, mühəndis-kimyaçılar, fermerlərdir.

4. ***Afrika ölkələri***. Bu region üçün daxili miqrasiya xarakterikdir. 1990-cı illərin əvvəllərində bu regionda miqrantların sayı 2 milyon nəfərə bərabər idi. İşçi qüvvəsini idxal edən əsas ölkələr Şimali Afrika ölkələri və Cənubi Afrika Respublikasıdır. Miqrantlar böyük əmək tələb edən almaz hasilatı, qızıl hasilatı, uran hasilatı kimi sahələrdə çalışırlar.

5. ***Rusiya***. Hazırda demoqrafik böhran yaşayan Rusiya beynəlxalq əmək bazarına çıxmağa və ölkəyə immiqrant axınını artırmağa məcburdur. 1995-ci ildə immiqrantların sayı 702,5 min nəfərə, emiqrantların sayı isə 340 min nəfərə bərabər olub.

Müasir mərhələdə miqrasiyanın xüsusiyyətlərinə həmçinin aşağıdakıları aid etmək olar:

- miqrantların ümumi sayında peşəkar-immiqrantların payının artması;
- qeyri-leqal immiqrasiyanın artımı;
- Şərqi Avropa və keçmiş SSRİ ölkələrindən emiqrasiyanın genişlənməsi;
- əmək miqrasiyasının dövlət və beynəlxalq tənzimlənməsinin əhəmiyyətinin artması;
- transmilli şirkətlərin miqrasiya proseslərində rolunun güclənməsi və onların bu prosesə təşkil olunmuş xarakter verməlri.

## 5.4. İşçi qüvvəsinin beynəlxalq miqrasiyasının ölkə iqtisadiyyatlarına təsiri

İşçi qüvvəsinin beynəlxalq miqrasiyası mürəkkəb və birmənalı olmayan bir proses olduğundan əmək resurslarını idxal və ixrac edən ölkələrin iqtisadi və sosial inkişafına həm müsbət, həm də mənfi təsir göstərə bilər.

Xarici işçi qüvvəsindən istifadə ***immiqrasiya ölkələri***nə əhəmiyyətli ***müsbət nəticələr*** əldə etməyə imkan verir:

- yüksək mobilliyə malik işçi qüvvəsinin idxalı nəticəsində ölkə iqtisadiyyatında struktur (sahəvi və regional) dəyişikliklər yüngülləşir;
- immiqrantlar adətən əmək resurslarının gəncləşməsinə səbəb olur, çünki adətən əhalinin daha mobil və daha əmək qabiliyyətli hissəsi miqrasiyaya cəlb edilir;
- işçilərin və mütəxəssislərin tədrisinə və ixtisaslarının artırılması üçün lazım olan vəsaitlərə qənaət edilir;
- immiqrantlar daxili bazarın həcmini genişləndirir və onların istehlak məqsədi ilə istifadə etdikləri vəsait ölkə iqtisadiyyatının inkişafına yönəldilir, onların banklardakı hesablarında toplanan vəsaitləri isə əlavə yığım mənbəyi kimi çıxış edir;
- xarici işçi qüvvəsinə çəkilən xərc yerli işçi qüvvəsinə çəkilən xərcdən aşağıdır ki, bu da firmaya əmək haqqı xərclərini aşağı salmağa imkan verir;
- immiqrantlar əmək haqqlarının bir hissəsini vətənlərinə köçürürlər ki, bu da onların işlədikləri ölkədən onların mənsub olduqları ölkəyə əmtəə ixracı üçün şərait yaradır.

Bununla yanaşı, bu proses ***immiqrasiya ölkələri*** üçün bir sıra ***problemlər*** də yaradır:

- işçi qüvvəsinin təklifinin artması və iş yerlərinin məhdudluğu səbəbindən milli əmək bazarında vəziyyət pisləşir;
- əmək bazarında işçi qüvvəsinin təklifinin artması nəticəsində milli işçi qüvvəsinin dəyərinin aşağı düşməsi baş verir;
- yerli əhali və immiqrantlar arasında münaqişələr üçün zəmin yaranır.

İmmiqrasiyanın iqtisadi effektlərini çox zaman mənfi təsvir edirlər və əsasən də iş yerlərinin azalmasını və yerli əhali arasında işsizliyin artmasını qeyd edirlər. Lakin bu problemi

inkar etmədən qeyd etmək lazımdır ki, immiqrantlar özləri ilə yeni təcrübə, bilik və bacarıqlar gətirirlər. ABŞ, Kanada və Avstraliya immiqrasiya nəticəsində yaranmış ölkələrdir.

İmmiqrantlar ayrı-ayrı sahələrin iqtisadi inkişafına dinamizm gətirirlər. Nümunə kimi, İndoneziya və Malayziyada olan çinli sənaye işçilərini, Kanadada fəaliyyət göstərən Honq-Konqlu sahibkarları, Afrikada olan hind və livan biznesmenlərini, İran körfəzinin neft hasil edən ölkələrində işləyən iordan və fələstin fəhlələrini göstərmək olar.

Bundan əlavə immiqrantlar yerli əhalinin çalışmaq istəmədikləri sahələrdə işləyirlər. Türkiyə və Şimali Afrikadan olan qeyri-ixtisaslı işçilər Almaniya və Fransaya olan immiqrasiyanın 60-80%-ni təşkil edir. Malayziyada indoneziyalılar, Argentinada boliviyalılar ağır işləri yerinə yetirirlər.

Bir sıra ölkələrdə əhəmiyyətli ixrac gəlirini təmin edən sahələr immiqrantlar olmadan fəaliyyət göstərə bilməzlər. Nümunə kimi, Cənubi Afrika Respublikasında dağ-mədən sənayesini, Dominikan Respublikası, Malayziya və İspaniyada kənd təsərrüfatı plantasiyalarını, Malayziyada kauçuk və rezin sənayesini göstərmək olar.

İşçi qüvvəsinin beynəlxalq miqrasiyasının ***emiqrasiya ölkələri*** üçün təsiri də birmənalı deyil. ***Müsbət təsirlər*** kimi aşağıdakıları qeyd etmək olar:

- emiqrasiya milli əmək bazarında mövcud olan gərgin vəziyyəti yüngülləşdirir;
- xaricdən ölkəyədaha təhsilli və ixtisaslı işçilər qayıdırlar;
- xaricdən valyuta köçürmələri ölkə gəlirinin vacib mənbəsinə çevrilir;
- vətənə qayıdan zaman miqrantlar özləri ilə maddi dəyərlər və yığımlar gətirirlər ki, onların da həcmi ümumilkdə pul köçürmələrinin həcminə bərabər olur.

***Mənfi amillər*** kimi isə aşağıdakıları göstərmək olar:

- ölkə əmək qabiliyyəti yüksək olan əmək resurslarının bir hissəsini itirir ki, nəticədə də əmək resurslarının yaşlaşması baş verir;
- ümumi təhsil və peşəkar hazırlığına xərclənən vəsaitlər itirilir;
- “beyin axını”, yəni yüksək ixtisaslı işçilərin və elm adamlarının xaricə axını baş verir.

Emiqrasiya əmək resurslarından bol olan ölkələrin iqtisadiyyatına əhəmiyyətli müsbət təsir göstərir. Belə ki, işçi qüvvəsinin xaricə axını işsizliyin həcmini azaldır. 1970-ci illərdə işsizlikə mübarizə proqramını işləyən Misir hökuməti ora xüsusi olaraq İran körfəzi ölkələrinə emiqrasiyanın stimullaşdırılması tədbirini salmışdı. Puerto-Rikoda qəbul edilən minimum əmək haqqı barədə qanun işçi qüvvəsinin ən azı 1/3-nin ABŞ-a emiqrasiya edəcəyindən çıxış edirdi.

“Beyin axını” özlüyündə əksər inkişaf etməkdə olan ölkələr üçün ciddi problemdir. Lakin əksər hallarda ölkənin iqtisadi vəziyyəti düzəldikcə “beyin axını” dayanır. Məsələn, hind alimləri bir neçə il yüksək texnologiyalarla məşğul olan ABŞ şirkətlərində çalışandan sonra öz ölkələrinə qayıtmış, yeni kompüter proqramlarının yaradılması üzrə Hindistan sənayesinin əsasını qoymuşlar.

## 5.5. Beynəlxalq əmək miqrasiyası proseslərinin milli tənzimlənməsi: mahiyyəti, növləri və alətləri

İşçi qüvvəsinin beynəlxalq miqrasiyası inkişaf etdikcə və genişləndikcə miqrasiya axınlarının dövlət idarəedilməsi metodları yaranmış və təkmilləşmişdir. əksər ölkələr xarici ticarətin liberallaşdırılması yolunu seçdikləri bir zamanda onların demək olar ki hamısı beynəlxalq miqrasiyanı məhdudlaşdıran tədbirlər həyata keçirirlər. Miqrasiya məcmu istehsal həcminin artımına gətirib çıxarsa da miqrasiyadan əldə edilən gəlirin bölgüsü hem də bərabər

deyil. Lakin miqrasiyanın mənfi iqtisadi effektləri onun müsbət effektlərini üstələyə bilər. Bu mənfi effektlərdən biri immiqrantların daha inkişaf etmiş ölkələrin büdcələrinə əlavə maliyyə yükü olmalarından irəli gəlir. Bu inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrlə ümumi sərhədləri olduqda və ya onlar bir-birlərinə nisbətən yaxın yerləşdikdə özünü daha aydın göstərir. Tipik nümunələr kimi ABŞ və Meksikanı, Fransa və Məğrib ölkələrini, Almaniya və Türkiyəni göstərmək olar. Bu cür yaxın qonşuluq leqallarla yanaşı qeyri-leqal immiqrantların da axınına səbəb olur. Bu isə miqrantlara maddi dəstək və ya deportasiya üçün əlavə maliyyə xərclərini tələb edir. Beynəlxalq təşkilatların qiymətləndirmələrinə görə, ABŞ-da daim 4 milyon, Qərbi Avropada 3 milyon qeyri-leqal immiqrant yaşayır.

İşçi qüvvəsinin beynəlxalq miqrasiyasının yaratdığı problemlər dövlət və dövlətlərarası tənzimləmənin geniş sisteminin yaranmasına gətirib çıxarmışdır. Dövlətin işçi qüvvəsinin beynəlxalq hərəkətinə müdaxiləsi onun beynəlxalq ticarətin tənzimlənməsində iştirakından daha əvvəl başlanmışdır. Hələ XVIII əsrin sonunda İngiltərədə sənaye işçilərinə xaricə emiqrasiyanı qadağan edən qanun qəbul edilmişdi. XIX əsr ərzində bir çox Avropa ölkələri arzuolunmaz şəxslərin ölkəyə gəlməsini məhdudlaşdıran qanunlar qəbul etmişdilər. Elə həmin vaxtdan etibarən ölkələr miqrasiyanı tənzimləyən ikitərəfli müqavilələr imzalamağa başlamışlar.

İşçi qüvvəsinin beynəlxalq miqrasiyasının həm ixracatçı, həm də idxalatçı ölkələr üçün mənfi və müsbət nəticələrə gətirib çıxarması onun tənzimnlənməsi üçün tədbirlər planının işlənməsini tələb edir. Milli iqtisadiyyatın normal fəaliyyətinin təmin edilməsinə yönəlmiş bu tədbirlər dövlət miqrasiya siyasəti çərçivəsində həyata keçirilir.

***Dövlət miqrasiya siyasəti*** işçi qüvvəsinin ixracı və idxalı proseslərinin tənzimlənməsi üzrə dövlətin məqsədyönlü fəaliyyətidir. İşçi qüvvəsinin miqrasiyasının dövlət tənzimlənməsi miqrantların, yerli işçilərin hüquqlarını qorumaq, həmçinin işçi qüvvəsinin ixracatçı və idxalatçı ölkələrinin maraqlarının qarşılıqlı müdafiəsinin təmin ediməsi məqsədlərini daşıyır.

Əksər ölkələrin qanunvericilikləri ilk növbədə immiqrantlar (daimi yaşamaq üçün ölkəyə gələn şəxslər) və qeyri-immiqrantlar (müəyyən müddətə ölkəyə gələn və/və ya daimi yaşayışa iddia etməyən şəxslər) arasında dəqiq fərqi müəyyən edir. Qeyri-immiqrantların əhəmiyyətli müddət ərzində ölkədə qalıb işlədiklərinə baxmayaraq, iqtisadi nöqteyi nəzərdən əmək miqrasiyasının tənzimlənməsi daha vacibdir.

Hazırda demək olar ki, bütün dünya dövlətləri əhalinin xarici əmək miqrasiyası sferasında baş verən prosesləri aktiv surətdə tənzimləyir. Əmək miqrasiyası proseslərinin institusional cəhətdən təmin edilməsi üçün hökumətlərin nəzdində ixtisaslaşmış qurumlar və komitələr yaradılır. Əmək miqrasiyası üzrə səlahiyyətli qurum kimi müxtəlif ölkələrdə müxtəlif nazirliklər çıxış edir: Portuqaliyada bu funksiyanı Xarici İşlər Nazirliyi, İspaniyada, Macarıstanda, Polşada, Çexiyada, Hindistanda və Filippində Əmək Nazirliyi, İndoneziyada və Tailandda Daxili İşlər Nazirliyi yerinə yetirir. Rusiyada isə Federal Miqrasiya Xidməti göstərir.

Əmək miqrasiyasının tənzimlənməsini təmin edən normativ-hüquqi baza özündə ölkə Konstitusiyasının müvafiq maddələrini, milli emiqrasiya qanunvericiliyini, ikitərəfli və çoxtərəfli beynəlxalq sazişləri əks etdirir. Buna əlavə olaraq bir sıra ölkələrdə xüsusi emiqrasiya proqramları qəbul edilir.

Dövlət miqrasiya siyasəti iki yerə - emiqrasiya və immiqrasiya siyasətlərinə bölünür ki, onların da bir-birlərindən fərqli məqsədləri və tənzimləmə metodları vardır.

Emiqrasiyanın iqtisadiyyata və demoqrafik vəziyyətə ikicəhətli təsiri dövlətin emiqrasiya siyasətində də öz əksini tapır.

***Emiqrasiya siyasəti***nin aşağıdakı istiqamətlərini fərqləndirmək olar:

- əmək miqrasiyasının stimullaşdırılması;
- əmək miqrasiyasının məhdudlaşdırılması;
- reemiqrasiya üçün şəraitin yaradılması;
- reemiqrantların vətəndə adaptasiyası üçün şəraitin yaradılması.

İşçi qüvvəsinin ixracının dövlət tənzimlənməsinin, yəni emiqrasiya siyasətinin məqsədləri aşağıdakılardır:

- miqrantları qəbul edən ölkələrdə işçi-emiqrantların hüquq və maraqlarının müdafiəsi;
- milli işçi qüvvəsinin ölkədən getməsindən irəli gələ biləcək itkilərin kompensasiya edilməsi.

Emiqrasiya siyasətinin əsasını emiqrasiya tsiklinin bütün üç fazasının – işçinin ölkədən getməsi, xaricdə işləməsi və vətənə dönməsi – tənzimlənməsi təşkil edir.

Emiqrasiya siyasəti əlverişli emiqrasiya mühitinin yaradılmasına yönəldilmiş dolayı tənzimləmə metodlarından və emiqrasiya axınlarının həcminin və strukturunun tənzimlənməsinə yönəlmiş birbaşa metodlardan istifadə edir.

Dolayı metodlara aiddir:

1) xaricdən valyuta köçürmələrinin dəstəkləyən valyuta və bank siyasəti; valyuta əmanətləri üzrə güzəştlərin təqdim edilməsi (daxili əmanətlərə nisbətən daha yüksək faizlər, xarici valyuta köçürmələrinə güzəştli poçt və teleraf tariflərinin təqdim edilməsi və s.); işçi-miqrantlara vergiyə cəlb edilməyən qiymətli kağızların satışı;
2) geri qayıdan emiqrantlar üçün gömrük güzəştləri nəzərdə tutan gömrük siyasəti. Məsələn, Banqladeşdə hökumət miqrantlara ölkəyə 40 adda məhsulu (xammaldan tutmuş zinət aşyalarına qədər) gətirərkən gözəştli tariflərdən istifadə etməyə şərait yaradıb;
3) bir sıra ölkələrdə qəbul edilən və işçilərin xaricdən geri qaytarılmasını və onların ölkə daxilində işlə təmini nəzərdə tutan xüsusi emiqrasiya proqramları;
4) mənzil tikintisi və ya alınması üçün reemiqrantlara kreditlərin və güzəştlərin verilməsi;
5) reemiqrantlara şəxsi biznes təşkili üçün kreditlərin verilməsi.

Birbaşa metodlara aiddir:

1) əmək miqrasiyasının subyektləri – vasitəçi firmalar və işçi-miqrantlara qarşı irəli sürülən sərt tələblər. Bu tələblərə görə firmalar emiqrantların işəgötürülməsi və normal həyat şəraitinin təmin edilməsi üzrə maliyyə və hüquqi təminatlar təqdim etməlidirlər;
2) xarici ölkələrin bazarlarında iş yerlərinin əldə edilməsinə yönəlmiş ekspansiya siyasəti. Məsələn, elə cür mütəxəssislərin xaricə getməsi dəstəklənir ki, onların xaricdə fəaliyyət göstərmələri yerli məhsulların ixracını tələb edəcək;
3) struktur siyasəti. Onun əsas elementləri kimi aşağıdakıları göstərmək olar:
   a) xarici pasportların verilməsinin limitləşdirilməsi (Birma, Vyetnam, Çin, Cənubi Koreya);
   b) müəyyən kateqoriya işçilərin xaricə getməsinə qadağa (birbaşa və ya dolayı) və emiqrasiya kvotalarının tətbiqi (Cənubi Koreya, Filippin və Banqladeş neftçilərin, rabitəçilərin, təyyarələrin təmiri üzrə texniklərin xaricə getmələrini kvotalaşdırır);
   c) dövlət hesabına təhsili başa çatdırdıqdan sonra ölkədə işləmək üçün məcburi olan müddətin müəyyən edilməsi.

***İmmiqrasiya siyasəti*** milli əmək bazarını nəzarət edilə bilməyən miqrant axınından müadfiə etmək, miqrantların əməyindən rasional istifadənin təmin edilməsi məqsədlərini daşıyır.

Əksər ölkələr immiqrasiya tənzimlənməsi zamanı selektiv yanaşmadan istifadə edirlər. Bu zaman ölkə ona lazım olan şəxslərin gəlişinə mane olmur, digərlərinin ölkəyə daxil olmasını isə məhdudlaşdırır.

Müxtəlif immiqrasiya proqramlarında miqrantları üç kateqoriya üzrə təsnifləşdirirlər:

1) ailə emiqrasiyası (ər-arvad, valideynlər, uşaqlar, bacı və qardaşlar, yaşlı qohumlar, nişanlılar və s.); mütləq surətdə ölkə vətəndaşı olan qohumun olması tələb edilir;
2) iqtisadi emiqrasiya; ölkənin iqtisadi inkişafına yardım göstərə biləcək ixtisasların, xüsusi qabiliyyətlərin, özəl sahibkarlıq fəaliyyəti təcrübəsinin olmasını tələb edir. Emiqrantlar kateqoriyasının 4 növü fərqləndirilir:
   a) özəl sahibkarlıq emiqrasiyası (müəssisə təsis etmək təcrübəsi və niyyəti, həmçinin bunu həyata keçirmək üçün kifayət qədər kapitalı vardır);
   b) yaxşı təhsilə və ixtisasa malik, iş tapmaq qabiliyyətinə sahib gənc yaşda olan şəxslərin emiqrasiyası;
   c) işəgötürənin dəvəti ilə emiqrasiya;
   d) yaradıcılıq. Idman, elm kimi sahələrdə beynəlxalq əhəmiyyətli nailiyyətlər əldə etmiş şəxslərin emiqrasiyası;
3) humanitar emiqrasiya; qaçqın statusunun verilməsini tələb edir və s.

Yeni və perspektivli sahələrin mütəxəssisləri (proqramçılar, darixtisaslı mühəndislər və s.), nadir peşə sahibləri (almaz cilalıyıcıları, şəkil restavratorları, qeyri-ənənəvi müalicə metodlarından istifadə edən həkimlər), dünya şöhrətli mütəxəssislər (musiqiçilər, aktyorlar, alimlər, idmançılar, yazıçılar), sərmayə qoyuluşu edən və yeni iş yerləri yaradan iri biznesmenlər, həmçinin minimal əmək haqqı ilə ağır, ziyanlı, çirkli işləri yerinə yetirməyə hazır olan işçilər adətən ölkələr üçün arzuolunan immiqrantlar olurlar.

İmmiqrasiya siyasətinin miqrantların kateqoriyasından asılı olaraq eyni zamanda tətbiq edilə bilən üç əsas tipi fərqləndirilir:

- ölkəyə immiqrantların gəlməsinin məhdudlaşdırılmasına (kəmiyyətə və müddətə görə) əsaslanan siyasət;
- ailə üzvlərinin gəlməsinə şərait yaradan və yaşayış müddətinə məhdudiyyət qoymayan siyasət;
- immiqrantların daimi yaşayışına icazə verən və vətəndaşlıq hüququnu almağa şərait yaradan siyasət.

İmmiqrasiya siyasətinin bu və ya digər formasının seçilməsi ölkədə mövcud olan iqtisadi vəziyyətdən, milli əmək bazarının vəziyyətindən, demoqrafik situasiyadan asılıdır.

*İmmiqrasiya siyasəti* aşağıdakı elementlərdən formalaşdırılır:

1. Peşəkar səviyyə - xarici işçi qüvvəsinə keyfiyyət tələbləri:
   a) Təhsil haqqında sertifikatın olması. Təhsilə qoyulan minimal tələb tam orta məktəb kursunu və ya peşə-texniki məktəbin bitirilməsidir ki, bu da müvafiq diplomla təsdiqlənməlidir. Çox zaman diplomlar yenidən yoxlanma və təsdiq edilmə prosedurunu keçir;
   b) Ixtisas üzrə iş təcrübəsi. İşə götürmə zamanı ixtisas üzrə minimum 3-5 il təcrübəsi olan mütəxəssislərə üstünlük verilir. Bəzən tövsiyə məktubları da tələb edilir. Avstraliyada ən azı 3 il, ABŞ-da 5 il, Kiprdə isə 2 il iş təcrübəsinə malik peşəkarlar qəbul edilir.
2. Ölkəyə daxil olanlara yaş məhdudiyyətinin tətbiq edilməsi. İmmiqrantların yaş məhdudiyyəti onların işləmək istədikləri sahələrə uyğun olaraq müəyyən edilir. Adətən yaş məhdudiyyəti 20-40 il arasında tərəddüd edir. Məsələn, Əlcəzairdə müxtəlif ixtisaslar üzrə

işçinin yaşı 40-ı keçməməlidir, İsveç və Norveçin isə neftçilərin yaşına 20-40 yaş həddində məhdudiyyət tətbiq edilmişdir.

3. Potensial immiqrantların sağlamlıq vəziyyətinin yoxlanması. Milli qanunvericiliklər immiqrantların sağlamlığına qarşı ciddi tələblər irəli sürürlər. Məsələn, İsveçdə və Norveçdə ölkəyə gəlməyə namizəd olan şəxslər ilkin tibbi və psixoloji testləşdirmədən keçirilir. Narkomanlar, psixi cəhətdən xəstə şəxslər, QİÇS-ə yoluxmuş şəxslər ölkəyə buraxılmırlar. İmmiqrantlar sağlamlıq vəziyyətləri haqqında xüsusi arayış təqdim etməli, ya da xüsusi tibbi müayinədən keçməlidirlər.
4. Şəxsi və siyasi xarakterli məhdudiyyətlər (sosial təmizləmə). Daha əvvəl cinayət işlədiklərinə görə məhkum olunmuş şəxslərin, terrorist və faşistyönümlü təşkilatların üzvləri olan şəxslərin immiqrasiyasına qadağa qoyulur. Məsələn, İrlandiyada daha əvvəl 1 ildən artıq müddətə məhkum olunmuş şəxslərin ölkəyə işləməyə gəlməsinə qadağa qoyulub.
5. İşçi qüvvəsinin idxalının birbaşa kvotalaşdırılması. İmmiqrantları qəbul edən əksər ölkələr onların maksimum kəmiyyətini müəyyən edirlər. Kəmiyyət kvotaları ümumilikdə iqtisadiyyat çərçivəsində (ümumi əmək resurslarında xarici işçi qüvvəsinin maksimum payının müəyyən edilməsi), ayrı-ayrı sahələr çərçivəsində (sahə üzrə xarici işçi qüvvəsinin maksimum payının müəyyən edilməsi), ayrı-ayrı müəssisələr çərçivəsində (bu zaman müəssisədə xarici və milli kadrların say nisbəti müəyyən edilir) tətbiq edilə bilər. Məsələn, Yunanıstan müəssisələrində xarici və yerli işçilərinin sayının nisbəti 1:10-u keçməməlidir. Bəzən bir il ərzində ölkəyə gələ bilən immiqrantların sayına da məhdudiyyət qoyulur. Kəmiyyət kvotalaşdırması işçi qüvvəsinin idxalının dövlət tənzimlənməsinin kifayət qədər sərt metodu hesab edilir.
6. Maliyyə məhdudiyyətləri. Bəzi ölkələr immiqrantların sayının azaldılmasına yönəldilmiş müəyyən maliyyə məhdudiyyətləri tətbiq edirlər. Bir sıra ölkələrdə hüquqi şəxslər yalnız müəyyən dövriyyə və satış göstəriciləri əldə etdikdən və ya dövlət büdcəsinə müəyyən qədər vəsait köçürdükdən sonra xarici işçini işə götürə bilərlər. Fərdi şəxslər ölkə iqtisadiyyatına müəyyən məbləğdə investisiya qoyacaqları halda immiqrasiya etmək hüququ qazanırlar. Bəzi ölkələrin qanunvericiliyinə görə, immiqrasiyanın rəsmiləşdirilməsi və yerli müəssisələrdə işə götürülməyə görə immiqrantlar müəyyən haqq ödəməlidirlər. Məsələn, Slovakiyada sadə işçi-miqrantlar işə düzəldiklərinə görə ödəmə həyata keçirməlidirlər. İrlandiyada 4 ay müddətində işləmək icazəsinə görə 100 irland funtu həcmində rüsum ödəmək lazımdır.
7. Müddət məhdudiyyətləri. Əksər ölkələrin qanunvericiliyi xarici işçilərin ölkədə maksimum qalma müddətini müəyyən edir. Bu müddət bitəndən sonra immiqrantlar ya ölkəni tərk etməli, ya da həmin müddətin uzadılması üçün səlahiyyətli orqanlardan icazə almalıdırlar. Zimbabvedə müəyyən müddətə işləmək üçün icazə 5 ildən artıq verilmir. Polşada bu göstərici 0,5 il, Norveçdə 1 il təşkil edir. Ölkədə tələbə və ya stajor kimi yaşayan şəxslər üçün çox zaman sərt qaydalar müəyyən edilir. Bu qaydalara görə, onlara ölkədə qalmaq müddətlərini uzatmağa icazə vermirlər. Onlardan təhsil müddətləri bitdikdən sonra mütləq öz ölkələrinə qayıtmaları tələb edilir. Yalnız öz ölkələrində müəyyən müddət qaldıqdan sonra onlar yenidən təhsil aldıqları ölkəyə qayıtmaq hüququ əldə edirlər.
8. Qadağalar. Özünü qanunların qəbul edilməsində göstərən açıq-aydın qadağalarla xaricilərin məşğul olması qadağan edilən ixtisasların siyahısı və sahələr birbaşa olaraq müəyyən edilir. Gizli qadağalar isə yalnız bu ölkənin əhalisinin vətəndaşlarının işləyə

biləcəkləri sahələr və ya ixtisasların siyahısını müəyyən edir. İmmiqrantların ölkə daxilində istənilən hərəkəti, ixtisaslarının dəyişdirilməsi, iş yerlərinin dəyişdirilməsi üçün əlavə icazə almaq tələb olunur. Əlbəttə ki, qeyri-leqal immiqrasiya da qadağan edilir və bu zaman heç də hər zaman effektiv olmayan polis metodlarından istifadə edilir.

9. Milli-coğrafi prioritetlər. İmmiqrantları qəbul edən ölkələrin demək olar ki hamısı qanunvericiliklə immiqrantların coğrafi və milli strukturlarını müəyyən edirlər. O adətən ölkələr üzrə immiqrantların sayına qoyulan kvotalarla tənzimlənir. Üstünlük verilən immiqrasiya regionları müəyyən edilir. 1924-cü ildə ABŞ Konqresi tərəfindən müəyyən edilən immiqrasiya kvotalarının strukturu Şimali-Qərbi Avropa əhalisi üçün əlverişli idi. 1965-ci ildə həyata keçirilən immiqrasiya qanunvericiliyinin islahatı Asiya və Latın Amerikası ölkələrindən miqrant axınını stimullaşdırdı. Lakin 1990-cı ildən etibarən qüvvədə olan yeni immiqrasiya qanunu Avropa ölkələrindən olan ixtisaslı mütəxəssislər üçün geniş imkanlar yaradır. Bəzən ayrı-seçkilikdə və insan hüquqlarının pozulmasında ittiham edilməmək üçün ölkələr coğrafi kvotalar mərçivəsində bir coğrafi regionda yerləçən müxtəlif ölkələrin nümayəndələri arasında immiqrasiya hüququnun əldə edilməsi üzrə lotereya keçirirlər.
10. Qeyri-qanuni işçi-miqrantlara, qeyri-qanuni işçi qüvvəsi idxalı ilə məşğul olan şəxslərə, işçi-miqrantlardan qeyri-qanuni istifadə edən işəgötürənlərə münasibətdə tətbiq edilən sanksiyalar sistemi. İmmiqrasiya qaydalarının pozulmasına görə qanunvericiliklə sanksiyalar müəyyən edilir. Burada müxtəlif həcmdə cərimələrdən tutmuş müxtəlif müddətlərə azadlıqdan məhrumetməyə qədər müxtəlif cəzaların tətbiq edilməsi nəzərdə tutulur. Onlar həm miqrantların özlərinə, həm onların qeyri-qanuni surətdə ölkəyə daxil olmasına köməklik göstərənlərə, həm də onları işə götürənlərə qarşı yönəldilə bilər. Ölkəyə qeyri-qanuni daxil olma cinayət hesab edilir. Buna görə deportasiyaŞ pul cərimələri və/və ya həbs qəti imkan tədbiri nəzərdə tutulur.

Dövlətlərin praktikasında işçi-miqrantların ölkədən çıxıb getməsinə yönəlmiş repatriasiya proqramlarından geniş istifadə edilir. Adətən reemiqrasiyanın stimullaşdırılmasına yönəldilmiş bu tədbirlər sırasında aşağıdakıları qeyd etmək olar.

- Reemiqrasiyanın stimullaşdırılması proqramları. Bu proqramlar qeyri-qanuni immiqrantların məcburi repatriasiyasından tutmuş vətənə qayıtmaq istəyən immiqrantlara maddi yardım göstərilməsinə qədər geniş tədbirlər planını əhatə edir. Qərbi Avropa ölkələrində (Almaniya, Fransa, Niderland) immiqrantların könüllü surətdə vətənlərinə qayıtdıqları halda onlara maddi yardımlar göstərilməsi üzrə proqramlar qəbul edilib. Bu cür maddi yardım alan immiqrantlar bir də bu ölkəyə qayıtmaq hüququndan məhrum olurlar. Maddi yardım immiqrantı işə götürən müəssisənin sosial sığorta və ya pensiya fondlarına köçürmələri əsasında yığılmış vəsaitlər hesabına həyata keçirilir. Bu cür maliyyələşdirmənin büdcənin xərclər hissəsinə əlavə yük olmadığı hesab edilsə də, praktikada bu istiqamətə ayrılan büdcə xərcləri də kifayət qədər böyük olur. Büdcə xərcləri əsasən immiqrantların qeydə alınması üzrə elektron sistemlərin yaradılmasına və onların fəaliyyətinin dəstəklənməsinə sərf edilir. Remiqrasiyanın stimullaşdırılması proqramlarının səmərəliliyi xeyli aşağıdır.
- İmmiqrantların peşəkar hazırlığı proqramları. Ayır-ayrı ölkələrin (Fransa, Almaniya, İsveçrə) hökumətləri immiqrantların peşəkar təhsili proqramlarına onları öz ölkələrinə qayıtmağa sövq edən vasitə kimi baxırlar. Bu proqramların məntiqinə görə, inkişaf etmiş ölkədə təhsil alan immiqrantlar öz ölkələrində daha yüksək əmək haqqı verilən və prestijli

olan işlərə iddia edə bilərlər ki, bu da onları öz vətənlərinə qayıtmağa sövq edə bilər. Lakin immiqrantlar bu cür proqramlara çox az maraq göstərirlər. Məsələ burasındadır ki, hər hansı bir ixtisasın əldə edilməsi hələ vətəndə həmin ixtisas üzrə iş tapıldığı demək deyil. Buna görə də immiqrantlar reemiqrasiya etmək və vətəndə daha yaxşı iş tapmaq ehtimalındansa artıq işlədikləri iş yerini (əmək haqqı aşağı olsa da) əllərində saxlamağa üstünlük verirlər.

- Kütləvi emiqrasiya mərkəzi olan ölkələrə iqtisadi yardım proqramları. Inkişaf etmiş ölkələr iş qüvvəsini ixrac edən ölkələrlə sazişlər imzalayırlar. Bu sazişlərə görə, müvafiq investisiya qoyuluşları ilə reemiqrantlar üçün iş yeri olacaq yeni müəssisələr yaradılır. Bu cür müəssisələr kooperativ, birgə müəssisələr, səhmdar cəmiyyət formalarında olurlar. Bu forma daha çox Almaniya və Türkiyə arasında inkişaf edib. Bir sıra hallarda əsasən alman sərmayələri hesabına yaradılmış türk şirkətləri təkcə reemiqrantları cəlb etmir, həm də yeni miqrasiya axınlarının qarşısını alırlar.

İnkişaf etmiş ölkələrin aktiv fəaliyyətinə baxmayaraq, reemiqrasiyanın stimullaşdırması proqramlarının əksəriyyəti qarşıya qoyulmuş məqsədləri əldə etməmişdir. Əgər proqramlar həyata keçirilən ilk dövrlərdə reemiqrasiya axını güclənirsə, proqramların maliyyələşdirilməsinin ixtisar edilməsi ilə xarici işçilərin vətənlərinə qayıtmaları kəskin azalır. Lakin onların aşağı səmərəliliyinin əsas səbəbi işçi qüvvəsini ixrac edən ölkələrin hökumətlərinin təkrar ixracda maraqlı olmamaları və emiqrasiyanın ixtisarı üçün zəruri tədbirləri həyata keçirməmələri ilə əlaqədardır.

Ümumilikdə hər bir ölkə işçi qüvvəsinin ixracı və idxalının tənzimlənməsi üzrə tədbirləri özünün daxili iqtisadi vəziyyətindən çıxış edərək müəyyənləşdirir. Miqrasiya proseslərinin tənzimlənməsinin xarakterik xüsusiyyəti ondan ibarətdir ki, bu sahədə prioritet milli dövlətlərin tərəfində olur. Mübahisəli məsələlərin həllində məhz milli miqrasiya qanunvericiliyi əsas götürülür.

## 5.6. Miqrasiya proseslərinin beynəlxalq tənzimlənməsi

İşçi qüvvəsinin beynəlxalq miqrasiyasının mənfi nəticələri və qeyri-leqal miqrasiyanın yüksək səviyyəsi bu prosesin beynəlxalq səviyyədə də təmzinlənməsini zəruri edir.

Miqrasiya proseslərinin beynəlxalq tənzimlənməsi sisteminə miqrantların əməyindən istifadə və onların sosial-iqtisadi hüquqları barədə ikitərəfli və çoxtərəfli beynəlxalq sazişlər, həmçinin bu işlə məşğul olan beynəlxalq iqtisadi təşkilatlar daxildir.

Beynəlxalq səviyyədə fəaliyyətləri miqrasiya proseslərinin qaydaya salınmasına yönəldilmiş bir neçə təşkilat yaradılmışdır.

***Beynəlxalq Əmək Təşkilatı (BƏT).*** 1919-cu ildə yaradılan bu təşkilat 1946-cı ildə BMT-nin ixtisaslaşmış təşkilatı statusunu alıb. Hazırda BƏT-ə 177 ölkə daxildir. BƏT-in vəzifələri aşağıdakılardır:

- işçilər üçün sosial ədalətliliyin təmin edilməsinə dəstək;
- əmək və həyat şəraitinin yaxşılaşdırılmasına yönəldilmiş beynəlxalq siyasətin və proqramların işlənməsi;
- milli hakimiyyətlər üçün əsas rolunu oynayacaq beynəlxalq əmək standartlarının hazırlanması;
- işçi qüvvəsi yığımının reqlamentləşdirilməsi;
- işsizliklə mübarizə;

- normal həyat səviyyəsini təmin edən əmək haqqına təminat;
- peşəkar xəstəliklərdən və bədbəxt hadisələrdən müdafiə;
- uşaq və qadınların müdafiəsi;
- sosial sığorta və təminat məsələlərinin reqlamentləşdirilməsi;
- peşəkar-texniki tədrisin təşkili; bu məqsədin reallaşdırılması üçün BƏT-in tərkibində Cenevrədə yerləşən Beynəlxalq Əmək Problemləri İnstitutu və Turində (İtaliya) yerləşən Yüksək Texniki və Peşəkar Hazırlıq üzrə Beynəlxalq Mərkəz fəaliyyət göstərir.

BƏT-in strukturuna daxildir:

- Beynəlxalq Əmək Konfransı – BƏT-in ali orqanıdır və qanunvericilik funksiyalarını yerinə yetirir;
- İnzibati Şura – BƏT-in nəzdində olan müxtəlif komitə və komissiyaların fəaliyyətinə rəhbərlik edir;
- Beynəlxalq Əmək Bürosu – BƏT-in informasiya və məsləhət orqanıdır.

BƏT-i digər ümumdünya təşkilatlarından fərqləndirən əsas cəhətlərdən biri ondan ibarətdir ki, onun siyasətinin hazırlanması zamanı sahibkarların və işçilərin təmsilçiləri hökumətlərin təmsilçiləri ilə bərabər sayda səsə malik olurlar.

BƏT aşağıdakı istiqamətlər üzrə fəaliyyətini həyata keçirir:

1. Əmək haqqında Konvensiya və Tövsiyələrin işlənməsi;
2. Asiya, Afrika və Latın Amerikasının inkişaf etməkdə olan ölkələrinə texniki yardımın göstərilməsi;
3. BƏT fəaliyyət dairəsinə daxil olan məsələlər üzrə təhsilin və tədrisin təşkili.

BƏT-in əsas funksiyalarından biri əmək haqqı, iş gününün müddəti və iş şəraiti, işçilərin əməyə görə mükafatlandırılması, sosial təminat, ödənilən məzuniyyət, əmək müdafiəsi kimi sahələrdə beynəlxalq əmək standartlarının müəyyən edən Konvensiya və Tövsiyələrin qəbul edilməsindən ibarətdir. Əsası qoyulandan bəri BƏT 172 konvensiya və 181 tövsiyə qəbul edib.

BƏT miqrasiya prosesinə qoşulan bütün ölkələrə məşğulluq sahəsində həyata keçirdikləri siyasəti koordinasiya etməyi, miqrantlara tibbi və ictimai xidmətləri yaxşılaşdırmağı, “beyin axını”na qarşı mübarizə aparmağı, miqrantların vətənə könüllü qayıdışını yüngəlləşdirməyi tövsiyə edir.

Aşağıda BƏT-in bir sıra Tövsiyələri sadalanmışdır:

- Xarici işçilərlə münasibətlər haqqında (1919);
- Gəmi göyərtəsində qadən-emiqrantların müdafiəsi haqqında (1926);
- İşçi miqrantların tapılması, işə götürülməsi və iş şəraitləri haqqında (1939);
- İşçi miqrantların az zəif inkişaf etmiş ölkələrdə müdafiəsi haqqında (1955).

BƏT-in işçi qüvvəsinin miqrasiyası problemlərinin həllinə yönəlmiş ilk normativ aktı 1935-ci ildə qəbul edilmiş və 1938-ci ildə qüvvəyə minmiş ***Konvensiya № 48*** olub. Konvensiyaya uyğun olaraq əlillikdən, yaşlılıqdan, ailə başçısının itirilməsindən irəli gələn hüquqların qorunması üzrə beynəlxalq əməkdaşlıq sistemi müəyyən edilmişdir. Qaydalar təşkilatın bütün üzv ölkələrində yaşayan xaricilərə (vətəndaşlığından asılı olmayaraq) aid edilir.

1949-cu ildə işçi miqrantlar haqqında ***Konvensiya № 97*** qəbul edilmişdir. Konvensiyanın müddəaları bu günə qədər aktuallığını qoruyub saxlamışdır.

Konvensiyanın iki müddəasına diqqət yetirək:

1) konvensiya ölkə ərazisində qanuni əsasda yaşayan immiqrantlara aiddir;

2) konvensiyada işçi miqrantlara müəyyən iş müddətindən sonra emiqrasiya etdikləri ölkədə daimi yaşayış hüququ əldə etmək imkanı verilir.

1955-ci ildə BƏT daha bir vacib sənədi – inkişaf etməkdə olan ölkələrin işçi miqrantlarının müdafiəsi haqqında ***Tövsiyyə № 100***-ü qəbul etmişdir. Bu sənəd inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial inkişaf maraqlarından, bu ölkələr üçün əmək resurslarının arzuolunmaz itkisinin məhdudlaşdırılmasından çıxış etməklə miqrasiyanın tənzimlənməsinə yönəldilmişdir.

Tövsiyyə ilə təklif edilən tədbirlər sırasında emiqrasiya ölkələrində iqtisadi inkişaf üzrə xüsusi proqramlardan tutmuş yeni iş yerlərinin yaradılmasına qədər çeşidli tədbirlərə rast gəlmək olar.

1974 və 1975-ci illərdə işçi miqrantlar haqqında iki sənəd - ***Konvensiya № 143*** və ***Tövsiyyə № 151*** qəbul edilmişdir. Bu sənədlər üzv dövlətlərə qeyri-leqal miqrasiyanın və qeyri-qanuni işə götürmənin qarşısının alınması üçün inzibati tədbirlərdən tutmuş həbs cəzasına qədər müxtəlif vasitələrdən istifadə etməyi təklif edir. Qeyd olunan sənədlərdə mahiyyət baxımından prinsipial və yeni olan bir müddəa da öz əksini tapmışdır. Belə ki, ölkədə qanuni əsasda fəaliyyət göstərən işçi miqrant işini itirmişsə ona ölkədə qeyri-leqal yaşayan kimi baxmaq olmaz və malik olduğu hüquqlardan istifadəni davam etdirməlidir.

BƏT-in normaları miqrantların hüquqlarının müəyyən edilməsi ilə yanaşı immiqrasiya ölkələrinin sosial xidmətlərinin öhdəliklərini də müəyyən edir.

İmmiqrasiya ölkələrinin sosial xidmətləri işçi-miqrantlara və onların ailə üzvlərinə münasibətdə bir sıra sosial funksiyaları həyata keçirirlər:

- ölkənin iqtisadi, sosial və mədəni şəraitinə uyğunlaşmaqda kömək göstərmək;
- səlahiyyətli orqanlardan informasiya və məsləhət alınmasına yardım etmək;
- təhsil, peşəkar hazırlıq, dil öyrənilməsi, səhiyyə, mənzil şəraiti və s. sahələr üzrə təqdim edilən imkanlardan tam istifadə üzrə köməklik göstərmək və s.

BƏT-in hər bir üzv dövləti aşağıdakılara əməl etməlidir:

- işçi miqrantlar, onların ailə üzvləri ilə öz vətəndaşları arasında bərabər imkanlar prinsipinin tətbiq edilməsini təmin etmək, bu prinsipə əməl edilməməsi üzrə şikayətləri öyrənmək;
- sahibkarlar və ya difər şəxslər və ya təşkilatlar tərəfindən qanunvericiliyin pozulması zamanı inzibati, mülki və cinayət cəzalarını tətbiq etmək;
- miqrantların hüquqları üzrə milli qanunvericiliyin və beynəlxalq normaların uyğunluğunu təmin etmək;
- ailələrin tezliklə birləşməsinə köməkik göstərmək, bunun üçün ikitərəfli və çoxtərəfli sazişlər imzalamaq və s.

***Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT).*** 1949-cu ildə Qaçqınların İşi üzrə Beynəlxalq Təşkilat kimi yaradılmış bu qurumun səlahiyyətləri zaman keçdikcə genişləndi və onun adı 1989-cu ildə BMiqT-yə dəyişdirildi. BMqT-yə 131 dövlət daxildir ki, onun 102-i üzv, 29-u müşahidəçidir. Bu təşkilat çərçivəsində miqrasiya axınlarının tənzimlənməsi sahəsində uzunmüddətli proqramların işlənməsi həyata keçirilir, miqrasiyanın təşkili, texniki əməkdaşlıq, "beyin axını"nın qarşısının alınması, reemiqrasiya, ekspert xidmətlərinin göstərilməsi və s. sahələrdə yardım edilir. Nizamnaməyə görə, BMqT-nin əsas funksiyaları aşağıdakılardır:

- vətəndaşların qaydaya salınmış və planlaşdırılmış miqrasiyasının həyata keçirilməsi;
- qəbul edən ölkənin inkişafına yardım göstərə biləcək ixtisaslı işçi qüvvəsinin (ailə üzvləri də daxil olmaqla) hərəkətinin təşkili;
- qaçqınların hərəkətinin təşkili;

- dövlətlər arasında bilik, təcrübə mübadiləsinə və əməkdaşlığa şərait yaratmaq məqsədilə müxtəlif tədbirlər həyata keçirmək.

Hazırda BMqT əsasən miqrasiyanın kəmiyyət tərəfini tənzimləyir. BMiqT həmçinin qaçqınlara ən müxtəlif yardımlar göstərir. BMiqT beynəlxalq miqrasiyanın əsas məqsədləri kimi aşağıdakıları göstərir: işəgötürmə; ailələrin qovuşması; təhsilin alınması; qısamüddətli turizm, ailəvi, işgüzar səfərlər (3 ay müddətinə); siyasi qaçqın statusunun alınması (Cenevrə Konvensiyası üzrə); vətəndaşların vətənə, özünün etnik kökünə qayıdışı; daimi yaşayış yerinə getmə.

BMqT qlobal səlahiyyətlərə malik, amma BMT sisteminə daxil olamayan yeganə təşkilatdır.

BMT nəzdində fəaliyyət göstərən ***Ali Komissarlığın Qaçqınların İşi üzrə İdarəsi*** qaçqınların müdafiəsi, uzunmüddətli qərarların reallaşdırılması, ilk növbədə isə repatriasiya məsələləri ilə məşğul olur.

İƏİT nəzdində fəaliyyət göstərən ***Miqrasiya üzrə Daimi Müşahidə Sistemi*** milli immiqrasiya idarələrinin fəaliyyətini koordinasiya edir.

Beləliklə, işçi qüvvəsinin beynəlxalq miqrasiyası təsərrüfat həyatının beynəlmiləlləşməsinin vacib və ən mürəkkəb aspektlərindən biridir. İşçi qüvvəsinin beynəlxalq miqrasiyası bir tərəfdən ölkələrin ehtiyaclarına uyğun olara əmək resurslarının yenidən bölgüsünü təmin edir və yeni rayonların mənimsənilməsinə şərait yaradır, digər tərəfdən isə iqtisadi və sosial ziddiyyətlərin kəskinləşməsinə gətirib çıxarır.